# Utopiyaların əhəmiyyəti

written by Ilkin Huseynli İlkin Hüseynli

Azərbaycanda bir çox yeni və xüsusilə liberal ideyalar ictimaiyyət ilə yanaşı böyük əksəriyyətinin millətçi olduğu yerli ziyalılar tərəfindən də "mükəmməlçi" və "utopist" olduqları üçün lağa qoyulurlar. Sosial və siyasi problemlərlə bağlı yeni, radikal yanaşma təklif etmək onlar tərəfindən nəinki ictimai dəyərlərə, həm də bu təkliflər mükəmməl və qüsursuz insanları təsvir etdiyi üçün insan təbiətinə zidd hesab edilir. Əgər kimsə ağlı başında və hörmətli insan kimi qəbul edilmək istəyirsə, onun ənənəçi / millətçi diskursdan çıxması demək olar ki, qeyri-mümkün işə çevrilir. Yeni ideyalar ya gözardına vurulur, ya da ədavətlə qarşılanırlar; bir insan utopist adı ilə damğalanmaq istəmirsə, gərək yalnız ənənəçi / millətçi diskurs daxilində "əslində, təkcə mənim arqumentlərim əsl ənənəvi dəyərlərə və / və ya əsl millətçilik növünə arxalanır" tipli iddialarla manevrlər etsin. Öz seçim imkanlarımızı genişləndirmək üçün biz bir cəmiyyət kimi bu məhdudlaşdırılmış diskursu qıraraq kənara çıxmalı və utopiyalara müraciət etməliyik. Lakin, bunu etməzdən əvvəl utopiyaların nə olduğunu başa düşmək lazımdır.

Utopiyanın orijinal mənası bugün çoxlarının istifadə etdiyi mənadan olduqca fərqlidir. 1516-cı ildə Tomas Mor iki yunan sözünü – *ouk* və *topos* – *ia* şəkilçisi ilə birləşdirərək "olmayan yer" mənasını verən bu neologizmi yaratdı. Amma məsələni daha da qəlizləşdirərək "Utopiya" kitabının sonundakı şeirdə qanunları və əhalisi yaxşı olduğu üçün bu yer *Eutopiya* (yaxşı yer) adlandırıldı. Nəticədə, utopiya və eutopiya eyni tələffüz edildiyi üçün Morun xəyali dövləti eyni zamanda həm olmayan yer, həm də yaxşı yerə çevrildi (Vieira 2010, 3-4). Məsələni daha da qəlizləşdirməmək üçün bu məqalədə "utopiya" sözünü yalnız daha yaxşı və ya yaxşı yer mənasında istifadə edəcəyəm. Utopiya və utopiyanizmin bir çox tərifləri olsa da, mən Missuri Sent Luiz Universitetində siyasi elmlər üzrə emeritus professor (yaşına görə təqaüddə olan) və yəqin ki, ən

nüfuzlu utopiya tədqiqatçısı Liman Touer Sargentin təklif etdiyi tərifi istifadə etməyi üstün tututam. Onun tərifinə görə, utopiyanizm "sosial yuxugörmədir – yəni bir qrup insanın həyatlarını necə təşkil etməsinə dair, onların hazırda yaşadıqları cəmiyyətdən radikal şəkildə fərqlənən bir sistem barədə xəyalları və təsəvvürləridir. Hərçənd onların hamısı radikal deyil. Çünki bəzi insanlar həmişə sadəcə olaraq özlərinə tanış olan şeyləri xəyal edirlər" (Sargent 1994, 3).

Lakin Azərbaycanda ümumi istifadədə utopiya və utopiyanizm adətən mükəmməlçi olmaqda ittiham edilir. Utopiyaların belə səhv başa düşülməsi və düzgün işlədilməməsi ucbatından demək olar bütün məsələlər ətrafında gedən debatların çərçivəsi olduqca daralmış vəziyyətdədir. Utopiyalara olan bu qeyri-professional, həvəskar yanaşma elmi ədəbiyyatda da özünə yer tapıb. Bu anti-utopiyaçı ənənənin əsas fiqurları sırasında Karl Popper, Lezsek Kalakovski, həmçinin Ralf Dahrendorf kimi məşhurların adlarını çəkmək olar. Mən növbəti bölmələrdə onların arqumentlərini "mükəmməlçiliyin tənqidçiləri" adı altında ümumiləşdirəcəyəm.

Bu məqalədə ümumi olaraq anti-utopistləri iki qrupa bölürəm. Hər iki qrupun utopiyalara qarşı olan arqumentlərini təhlil edərək belə bir iddia irəli sürürəm ki, onlar öz tərifləri əsasında utopiyaların təhrif olunmuş şəklinin tənqidi ilə məşğuldurlar, yəni anti-utopistlər müqəvva səfsətəsinə[i] düşüblər. Bu məqsədlə utopistlərin insan təbiəti barədə olan görüşlərini təhlil edirəm. Beləliklə də, mən utopiyalar və real insanlar arasında doldurulmaz boşluğun olduğuna inanan mükəmməlçiliyin təndiqçilərinin arqumentlərini təkzib etməyə çalışıram. Sonra isə arqumentimi daha da gücləndirmək və utopistlərin insanların daxili yaxşılığı barədə olan şübhəli görüşlərini nümayiş etdirmək üçün əsas bədii utopiyalarda cəza metodlarından misallar gətirirəm. Düzü, bədii utopiyalar utopiyanizmin elementlərindən sadəcə biridir. Arqumentlərimi dəstəkləmək üçün təkcə onlardan istifadə etməyə üstünlük vermişəm. Çünki utopiya tədqiqatçılarının "nələri utopiyanizmin tərkib hissəsi kimi klassifikasiya etmək olar"

mövzusunda ziddiyyətli fikirləri olsa da, onlar çoxdan belə bir ümumi fikrə gəliblər ki, bədii utopiyalar bu ənənəyə daxildirlər. Məsələn, Sargent utopiyanizmi üç hissəyə – bədii utopiyalara, kommunitarianizmə (cəmiyyətçilik) və utopist sosial nəzəriyyələrə – bölsə də, sonuncu ikisinin mübahisəli mövzular olduğunu etiraf edir.

İdeologiya və utopiya arasında əlaqəni bu məqalənin əhatə dairəsində dərindən təhlil etmək mümkün olmasa da, növbəti bölmədə məsələyə aydınlıq gətirmək üçün hər iki termin barədə qısaca bəhs edib, onlara tərif verməyə çalışacam. İkinci qrup anti-utopistlərə olan cavabımın bir hissəsi olaraq isə iddia edirəm ki, doqmatik, güclü ideoloji, dini, millətçi və digər növ qapalı qruplar tərəfindən “oğurlanmadığı” müddətcə utopiyalar heç də şiddətə əsas vermirlər. Tam tərsinə, utopiyalar insanların ən əsas xüsusiyyətlərindən biridir və istənilən cəmiyyətin inkişafı üçün mühümdürlər.

**Utopiya və ideologiya**

Utopiya və ideologiya ilə bağlı məsələdə ədəbiyyatda ən əhəmiyyətli fikir adamları Karl Mannhaym və Pol Rikor hesab edilirlər (bax Sargent 2008). Mannhaymın ideologiyaya verdiyi tərif belə bir güman üzərində qurulur ki, ideologiya reallığın təhrif edilmiş formasıdır: “bilik o zaman təhrif edilmiş və ideoloji olur ki, o, bir vəziyyətə tətbiq edildikdə yeni reallıqları nəzəri almır və onları vəziyyətə uyğun olmayan kateqoriyalar kimi gördüyü üçün gizlətməyə çalışır” (Mannheim 1998, 86). Mannhayma görə ideologiyanın iki forması var: xüsusi və ən vacibi isə ümumi. İdeoogiyanın xüsusi forması qismən şüurlu şəkildə “hadisənin həqiqi təbiətirini gizləmək” cəhdi olduğu halda, ümumi forması “bir dövrün və ya konkret tarixi-sosial qrupun ideologiyasıdır” (Mannheim 1998, 49). Bu mənada, Mannhaym üçün ideologiyalar əsasən xüsusi bir qrupu birlikdə saxlaya bilmək üçün bilərəkdən deyilmiş yalanlara və ya doğru olmayan bəyənatlara, inanclara əsaslanırlar. O, iddia edirdi ki, “bu şüursuz motivlərin maskaları” götürülməlidir (1998, 35). İdeologiyanın bu tərifinin təməl eyhamı budur ki,

ideologiyaya inanan kimsə heç vaxt onu daxildən tanıya bilməz və "reallığı" da həmin ideologiyanın sərgilədiyi kimi qəbul etməyə məhkumdur. O təklif edirdi ki, yalnız heç bir qrupa "bağlanmamış" ziyalılar və ya "qismən sinifsiz təbəqə" ideologiyanı tanımağa qadir ola bilər (Mannheim 1998, 136-146).

Mannhaymın tərifində utopist ideyalar mövcud sosial nizamı aşaraq ötüb keçir və status kvonu radikal formada dəyişdirməyi məqsəd kimi görür. O, "utopist düşüncə tərzi meydana gəldiyi reallıq vəziyyəti ilə uyğunsuz olur" desə də, dərhal əlavə edir ki, mövcud sosial nizamı aşan bütün uyğunsuz düşüncə tərzləri utopist kimi başa düşülə bilməzlər. Öz mövqeyini aydınlaşdırmaq üçün qeyd edir ki, "reallığı aşan düşüncələrdən yalnız icra edildikdə dövrün nizamını qismən və ya tamamilə dağıtmağa meyilli olanlara biz utopist deyəcəyik" (Mannheim 1998, 173). Utopiya və ideologiya arasında dəqiq sərhəd müəyyənləşdirmək qəliz məsələdir, çünki keçmişin utopiyaları bu günün reallıqları olanda utopiyadan ideologiyaya keçid baş verə bilər. Adətən bu terminlər retrospektiv[ii] olaraq klassifikasiya edilirlər. Keçmişə baxaraq hansı ideyaların dövrün status kvosunu qorumağa, hansılarının isə "mövcud nizamın bağlarını" dağıtmağa  xidmət etdiyinə qərar verə bilərik (Mannheim 1998, 184).

Rokora görə ideologiya reallığı təhrif etmək, mövcud sosial nizamı legitimləşdirmək və kimlik yaratmaq məqsədi güdür. İdeologiyanın amalı müəyyən bir qrupun dəyər sistemini qorumaq və onun dünya görüşünü xüsusi, təhrif edilmiş şəkildə formalaşdırmaqdır. O qeyd edir ki, fantaziya və ya reallıqdan qaçmaq utopiyaların mənfi xüsusiyyətidir. Utopist bir insan dünyəvi problemlərindən qaçmaq üçün öz xəyallarında yaşamağı seçə bilər. Utopiyanın iki müsbət cəhəti kimi isə Rikor ilk olaraq qeyd edir ki, utopiya "gücün alternativ formasıdır." Utopiya iyerarxiyasız cəmiyyət qurmaqla məşğuldur: "utopiyanın problemi həmişə iyerarxiyadır, onunla necə başa çıxmalı və iyerarxiyanı necə başa düşməli." İkincisi, "utopiya mümkün ola biləcək şeylərin tədqiqidir" (Ricouer 1986, 310). Mannhaym heç

bir qrupa bağlanmamış ziyalıların ideologiyanı tanıya biləcəkləri fikrini irəli sürdüyü halda, Rikor təklif edir ki, biz “utopiyanı götürməli, elan etməli və ideologiyanı utopiyanın əsasında qiymətləndirməliyik. Mükəmməl gözətçi [Mannhaymın “bağlanmamış ziyalıları” – İ.H.] mümkün olmadığından, prosesin daxilindəki bir insan ideologiyanı qiymətləndirmə məsuliyyətini öz üzərinə götürə bilər” (Ricouer 1986, 172-173). Alternativ cəmiyyət, yəni utopiya bizi hazırki yaşayış tərzimizdəki qəribə və gülünc şeyləri görməyə məcbur edir. “Heç yer”in nöqteyi-nəzərindən ziddiyyətlərini görmək məqsədi ilə biz öz cəmiyətimizi dəyərləndiririk.

Mannhaymdan olan bu uzun sitat utopiyaların əhəmiyyətini elə mükəmməlcəsinə təsvir edir ki, onu orijinal formada təqdim etməyi özümə borc bildim: “*Buna görə də mümkündür ki, gələcəkdə, heç vaxt yeniliyin olmadığı, hər şeyin tamamlandığı və hər bir anın keçmişin təkrarı olduğu bir dünyada, düşüncənin bütün ideoloji və utopist elementlərdən tamamilə məhrum olduğu şərait mövcud ola bilər. Lakin bizim dünyamızda reallığı aşan elementlərin tamam sıradan çıxması bizi ‘ifrat faktuallığa’ gətirib çıxardacaq ki, bu da insan iradəsinin tənəzzülü deməkdir. Reallığı aşan bu iki növ arasındakı ən zəruri fərqlilik burada yatır: ideologiyanın tənəzzülü yalnız müəyyən bir təbəqənin böhranını və həmişə bütün bir cəmiyyətin özünü aydınlaşdırması ilə nəticələnən ideologiyaların maskalarının çıxarılması prosesindən qaynaqlanan obyektivliyi təmsil edirsə, insan düşüncəsindən və davranışından utopist elementlərin tam yoxa çıxması insan təbiətinin və insan inkişafının tamamilə yeni xarakter alacağı mənasına gəlir. Utopiyanın yoxa çıxması insanın əşyadan başqa bir şey olmayacağı statik, dəyişməz vəziyyətə düşməsinə səbəb olur. O zaman biz ən böyük paradoksla qarşı-qarşıya qalacağıq, yəni mövcudluğun rasional ustalığının ən yüksək dərəcəsinə çatmış insan bütün ideallardan məhrum qalıb sadəcə olaraq impulslardan ibarət məxluqa çevrilir. Buna görə də, əzablı amma qəhrəmancasına olan uzun inkişafdan sonra, şüurluluğun ən yüksək mərhələsində, tarixin kor tale olub, getdikcə daha çox*

*insanın özünün yaratdığı bir şeyə çevrildiyi vəziyyətdə utopiyalardan imtina etməklə, insan tarixi formalaşdırmaq iradəsini və bununla da onu başa düşmək qabiliyyətini itirəcək*" (Mannheim 1998, 235-236).

**Mükəmməlçiliyin tənqidçiləri**

Onlar üçün utopiyalar insanların mükəmməlliyə çatdığı, bizim müasir cəmiyyətlərimizə alternativ və daha yaxşı yerlər hesab edilirlər. Utopistlər xəyalpərəstdirlər və bütün olmasa da, əksər problemlərinin həll olunduğu, indi yaşadıqları cəmiyyətdən tamamilə fərqli bir cəmiyyət təsəvvür edirlər. Kreyn Brayanın qeyd etdiyi kimi utopistlər belə qənaətə gəlirlər ki, "vəziyyət pisdir [və o,] daha yaxşı, bəlkə də *mükəmməl* olmalıdır" və vəziyyət özü-özünə təbii olaraq yaxşılaşmayacağına görə, "[elit tərəfindən] bir plan hazırlanıb icra edilməlidir" (Brian 1956, 348 vurğu əlavə edilmişdir). Utopiyalar bu növ mükəmməlçi və elitist formada başa düşüldüyünə görə, alimlərin, ziyalıların da daxil olduğu bir çox insan onlara məhəl qoymurlar. Çünki inanırlar ki, utopist iddialar insan təbiətinə zidddir və onlar axır-əvvəl özləri özlərini məhv edirlər. Bu tənqidçiləri təxminən iki qrupa bölmək olar: Onların birinci qrupu utopiyaların ciddi qəbul edilməsini sadəlövhlük və vaxt israfı hesab etməklə kifayətlənməyib iddia edir ki, cəmiyyətimizi inkişaf etdirmək istəyiriksə, onda mütləq "reallıq"dan yapışmalıyıq. İkinci qrup anti-utopistlər isə iddia edirlər ki, utopiyalar təhlükəlidir, çünki tətbiq edildikdə onların şiddətə və totalitarianizmə güclü meylləri olur.

Utopiyanizmin əleyhdarları iddia edirlər ki, utopistlər dəyişikliyin qeyri-mümkün olduğu mükəmməl dünya üçün bir model tapdıqlarına inanan xəyalpərəstlərdir. Bu səbəbdən də, utopistlər gündəlik problemlərdən qaçış yolu kimi öz xəyallarında yaşamağa üstünlük verən sadəlövh və zəif fərdlər hesab edilirlər. Bu görüşə görə, utopiyanizm həm də təhlükəlidir, çünki utopistlər öz model dünyalarının mükəmməlliyindən əmin olduqları üçün güzəştə getməyə və digər

tərəfə qulaq asmağa həvəssizdirlər. Onlar zamanla doqmatik olub qarşı tərəfə öz fikirlərini zorla qəbul etdirməyə çalışacaqlar. Başqa sözlə desək, utopistlər inanırlar ki, nəticələr vasitələrə bəraət qazandırır və hakimiyyəti ələ keçirləri zaman utopistlər öz rəqiblərini edam etməyə heç də tərəddüdlə yanaşmırlar. Utopiyanizmin ən geniş yayılmış tənqidi onu kommunizm, faşizm və nasizm ilə eyniləşdirməkdir (bax Cziganyik 2017, 10-11). Tənqidçilər deyirlər ki, bu ideologiyaların hər birinin mərkəzində bir utopiya yatırdı və onlar öz xəyallarını həyata keçirmək istəyən kimi bu ideologiyaların tətbiq edilməsi totalitarianizm və şiddətlə nəticələndi. Bu baxımdan da, tənqidçilər belə nəticəyə gəlirlər ki, utopistlər plüralizm, tolerantlıq və güzəştə qarşı olan doqmatik insanlardır.

Utopiyanizmin ən nüfuzlu tənqidçilərindən biri utopiyaların insan mükəmməlliyi, həmçinin dəyişməyən cəmiyyət kimi məqsədlərinin nəticə olaraq sonda şiddət və özünü məhvə apardığını iddia edən Karl Popper idi. O, bu terminə belə tərif verirdi: “Utopiyanizm adlandırdığım şeyi cəlbedici və həqiqətən də çox cəlbedici nəzəriyyə hesab edirəm; mən həmçinin onu təhlükəli və məhvedici də hesab edirəm. İnanıram ki, o, özünü məhvə aparır və şiddətə gətirib çıxardır” (Popper 1986, 5). Bir çox başqa alimlər də utopiyanizmə verdikləri təriflərində “mükəmməl” və “dəyişməz” kimi sözləri vurğulayıblar. Məsələn, filosof Lezsek Kolakovski qeyd edirdi ki, sosial utopiyalar “mükəmməl və əbədi insan qardaşlığı ideyası” üzərində qurulub (Kolakowski 1983, 237). Sosioloq Ralf Dahrendorf isə yazırdı ki, “Bütün utopiyaların” bir oxşar elementi, “onların hamısının *dəyişikliyin olmadığı* cəmiyyətlər” olmasıdır (1958, 115 vurğu əlavə edilmişdir).

Həqiqətən də qəbul etməliyəm ki, kiçik bir qrupdan ibarət güclü insanlar etdikləri hər şeyə bəraət qazandırmaq üçün özlərinin qapalı utopiyalarından ideologiya kimi istifadə etsə, utopiyalar təhlükəli ola bilərlər. Millətçilər yalnız xüsusi bir millətin nümayəndələrinin qəbul edildiyi və *digərlərindən* daha yaxşı münasibət gördüyü *xaricedici utopiya*

yaratmaq istəyə bilərlər. Yaxud da bir dindar insan, deyək ki, bir müsəlman qeyri-müsəlmanların ikinci dərəcəli vətəndaş olduğu və əlavə vergi verməklə mükəlləf olduqları İslam qanunları ilə idarə edilən İslam utopiyası istəyə bilər. Əsaslı olaraq iddia edilə bilər ki, bu misallar da utopiyanizmin, yəni müvafiq olaraq bir millətçilinin və dindar insanın sosial yuxugörməsinin tərkib hissəsidir. Lakin bu xüsusi *xaricedici "xəyallar"ın* özəklərində bəzi utopist elementlər mövcud olsa da, onlar həyata keçirildiyi andan etibarən ideologiyaya çevrilirlər. Əlavə olaraq, millətçi və dindar utopiyalar mövcud status kvonu dağıtmaq əvəzinə hansısa bir sosial nizamı legitimləşdirirlərsə, onlar utopiyalardan çox ideologiyalar kimi klassifikasiya edilirlər.

Biz utopistlərin insan təbiəti, cinayət, insan mükəmməlliyi və rasionallığı barədə olan görüşlərini təhlil etsək, açıq şəkildə görərik ki, utopistlər insanların apotezə, yəni tanrı səviyyəsinə çata biləcəyinə inanmırlar. H.C. Uellsin "Tanrı Kimi İnsanlar" kitabı yəqin ki, yuxarıda mükəmməlçiliyin tənqidçiləri tərəfindən qeyd edilən iddiaların hamısını rədd etmək üçün ən yaxşı misaldır. Uells öz əsərində qəhrəmanı Cənab Barnsteyplın Yer planetindən təxmini üç min il irəlidə olan Utopiyaya gəldikdə necə məyus olduğunu təsvir edir. Çünki o belə güman edirdi ki, Utopiyada heç bir dəyişikliyə ehtiyac olmayacaq və hər şey mükəmməl olacaq. Lakin Utopiyanın dinamik təbiətinin olduğunu gördükdə gözləntilərinin puç olduğunun fərqinə vardı: "*Cənab Barnsteypl həyatın necə iri addımlarla irəliləməsindən vahimələnirdi (…) çünki dünyamızdakı bir çox ziyalıların ağlında olduğu kimi, onun da ağlında belə bir fikir var idi ki, hər şey bizə məlum olacaq və elmi inkişaf ən son mərhələsinə qədəm basacaq. Sonra da biz sonsuza qədər xoşbəxt olacağıq. O, həqiqətən də inkişafda olan dəyişikliyə öyrəşməmişdi. O, həmişə düşünürdü ki, Utopiya hər şeyin həll edildiyi sakit bir yerdir. Hətta bu gün də Utopiya duman altında sakit görünürdü, amma cənab Barnsteypl bilirdi ki, bu sükut bir köpük, qabarcıq, ya da bir çubuq və ya yarpağın suya düşməsi ilə surətinin ifşa olunacağı dəyirman suyunun*

*sabitliyi idi*" (Wells 2002 [1923], 68).

**Utopiyalar və insan təbiəti**

Utopistlər insanların öz yaxşı tərəflərini inkişaf etdirmək potensialına inansalar da, cəmiyyəti cinayətkarlardan qorumaq üçün cəza, həbsxana və qanunların əhəmiyyətli olduğunu düşünürlər. Məsələn, Eduard Bellaminin *Geriyə Baxış* əsərində bütün cinayətlərin atavizmin qalıqları hesab edilməsinə və həmin cəmiyyətdə həbsxanaların mövcud olmamasına baxmayaraq, bütün cinayətkarlar xəstəxanalarda əqli qüsurlu insanlar kimi müalicə alırlar. Kitabın narratoru Culian Vestə deyilir ki, sənaye ordusunda xidmət etməkdən imtina edənlər "[xidmətə] razılaşana kimi ancaq çörək və su verilərək cərimə təcridxanasında saxlanılır" (Bellamy 2008, ss. 86, 57). A. P. Russelin *Sub-Coelum* kitabında fərdlərin şəxsi həyatları demək olar ki yoxdur və "onların polis sistemi təşkilatlanmış cəmiyyətlərindən fərqlənmir." Narrator qeyd edir ki, "insanların şəxsi həyatının olmasını tələb edən davranışlar bəyənilmir" (Russell 2013, 59). Bədii utopiyaların sadəlövh və mükəmməlçi olduqları üçün tənqid edilməsinə baxmayaraq, bu tənqidlər məsələnin əhəmiyyətini gözdən qaçırdırlar. Ümumi götürdükdə, utopiyalar insanların təbiətindən çox cəmiyyətdəki təsisatları dəyişməyə çalışırlar. Mesaj bəllidir: insanlar öz davranışlarına nəzarət etməyə qadirdirlər, lakin "izləndiklərini bilsələr" daha yaxşı olar (Sargent 1975, 89). Bu, utopiyaların insan təbiətinə olan münasibətini göstərir: bir tərəfdən onların insanlara böyük inam var, digər tərəfdən isə silahı yerə qoymağa könülsüz yanaşırlar.

Əksər utopistlər insanların daxilən yaxşı olduqlarına inanmırlar. Onlar anarxist filosof Uilliam Godvin ilə daha çox razılaşarlar ki, insanlar daxilən nə yaxşıdırlar, nə də pis; insanlar öz ətraf-mühitləri tərəfindən formalaşıblar, buna görə də, biz təkcə fiziki olaraq yox, həm də mənəvi baxımdan bərabərik (Goodwin 1793, 12-18). Qorman Beuçhamp qeyd edir ki, utopistlər üçün insan ətraf mühitin məhsuludur və bu iddia da iki fikirlə dəstəklənir (Beauchamp 2007, 208). Bunlardan

birincisi Russo tərəfindən formalaşdırılıb: “insan təbiəti etibarilə yaxşıdır,” lakin o, “xasiyyətində baş vermiş dəyişikliklərə görə” öz yaxşılığından məhrum olunub” (Rousseau 2002, 39). İkincisi isə Lok tərəfindən elan edilib ki, insan beyni sadəcə olaraq “ağ kağız”dır və o, insanın təcrübələri nəticəsində formalaşır (Lock 2007, 18). Başqa sözlə desək, utopistlər inanırlar ki, “insanın təbiəti yoxdur. Onun tarixi var” (Gasset 1936, 313). Utopistlər üçün insanlar təhsil, insani rəftar, sevgi və ağıl ilə formalaşdırmağın mümkün olduğu plastik kimidirlər. Utopistlərə görə insanlar yaxşı və mehriban olmağa *meyllidirlər* və onlar sosial təsisatlarin sayəsində pis olublar. Buna görə də, biz sosial təsisatları düzəltsək, insanların öz potensial yaxşılıqlarına çatmaqları üçün heç bir maneə qalmayacaq.

Mükəmməlçi görüşün təməl eyhamı budur ki, “mükəmməl” sözü “tamamlanmış” mənasını verdiyi üçün utopiyaların təsvir etdikləri dünyada dəyişiklik qeyri-mümkündür. Bunun utopiyalarla bağlı geniş yayılmış fikir olmasına baxmayaraq, Sargentin qeyd etdiyi kimi, bu iddia sadəcə olaraq “məni qıcıqlandırır” (Sargent 2006, 13). Çünki utopiyaların, ələxsus da bədii utopiyaların sadə təhlili bizə göstərir ki, utopistlər dəyişikliyə ehtiyacın olmadığını və fərdlərin mükəmməlliyə çatmaq bacarıqlarının olduğunu güman edəcək qədər sadəlövh deyillər. Sargent yazır ki, on doqquzuncu əsrin dini miflərindən savayı, özünün mükəmməl olduğunu iddia edən bədii utopiya əsəri tapmaq mümkün deyil. “Utopiyaların çox böyük əksəriyyəti dəyişməz mükəmməlliyin təsviri kimi yazılmayıb” (Sargent 2006, 13). Utopistlər təsisatların elə qurulduğu bir cəmiyyət istəyirlər ki, orada insanların mükəmməlliyə yox, tam potensiallarına çatmaqları üçün şərait yaradılsın.

İnsanlara olan bütün bu optimist yanaşmalara baxmayaraq, utopistlər qəbul edirlər ki, hətta yaxşı cəmiyyətdə də bir qədər cinayət halları baş verəcək və hər bir utopiya cinayətkarlarla baş açmağın bir yolunu tapmalıdır. Utopistlər heç bir cəza qorxusu olmadan insanların əməkdaşlıq edə biləcəyinə inanmırlar və bu inamsızlıq da bədii utopiyalardakı

*həbs*, *xəbərdarlıq*, *maddi təzminat*, *islah koloniyası*, *sürgün* və olduqca nadir hallarda isə *ölüm hökmü* kimi cəzaların mövcudluğunu açıqlayır. Bu cəza metodları utopistlərin insan mükəmməlliyini rədd etdiyini aydın şəkildə göstərir – əks təqdirdə bədii utopiyalarda təkmilləşdirilmiş cəza metodlarına ehtiyac duyulmazdı[iii]. Bədii utopiyalarda ən çox rast gəlinin cəza metodu həbsdir, amma növbəti paraqraflarda mən alternativ cəza metodları haqqında da misallar gətirirəm. Beləlikə də göstərirəm ki, utopiyaların böyük əksəriyyəti insan mükəmməlliyini, ya da dəyişməz cəmiyyət ideyasını rədd edir və yaxşı cəmiyyət üçün müvafiq təşkilati tənzimləmələrin lazım olduğuna inanırlar.

**Utopiyalarda ağır cəza metodları**

Tomas Morun *Utopiya* əsəri birinci erkən modern utopiya hesab edilir və bu janra adını verdiyi üçün Morun əsəri xüsusi əhəmiyyət kəsb edir. Mor özündən sonra xristian qərbində yazılacaq bədii utopiyalar üçün ümumi bir formanın əsasını qoydu. Bədii utopiyalarda hadisələr təxmini bu cür inkişaf edir: səyahətdə ikən bir nəfər uzaq, naməlum bir yerə gəlib çıxır. Bu səyahətçi adətən yerlilər tərəfindən xoş qarşılanır və ona bələdçilik təklif edilir. Bu yerin sosial, iqtisadi və siyasi strukturu ilə tanış olan səyahətçi buranın öz doğma ölkəsindən daha üstün olduğunun fərqinə varır. Burada eyham ondan ibarətdir ki, sonra bu səyahətçi "cəmiyyəti qurmağın alternativ və daha yaxşı yollarının olması mesajını çatdıra bilmək üçün" öz evinə qayıdır" (Vieira 2010, 7).

1516-cı ildəki insanlarla müqayisədə Morun utopiyalıları sözsüz ki, öz müasirlərinə nisbətdə üstün idilər, lakin onlar da cinayətlər törədirdilər və Utopiya dövləti də cinayətkarları ağır cəzalandırırdı. Utopiyalıların qeyri-mükəmməl təbiətinə görə, dövlət hətta insanların şəxsi həyatına da nəzarət etməyi vacib sayırdı. Dövlət tərəfindən müəyyənləşdirilmiş evlilik yaşı qızlar üçün on səkkiz, oğlanlar üçün isə iyirmi iki idi (More 1516, 127). Həmçinin poliqamiya və boşanmaq da qadağan edilmişdi (1516, 129). İlk

dəfə baş verdikdə “zinakar kişi və qadınlar köləliyə məhkum edilir,” ölənə kimi də evlənməkdən məhrum olurdular (1516, 130). Zina təkrarlanarsa, onları ölüm ilə cəzalandırılmalı idilər. Hətta dövlətin icazəsi olmadan intihar etmək belə cinayət hesab edilirdi və intihar edənlərin bədənləri “xəndəyə atılırdı” (1516, 127). Morun “Utopiya”sında inanırdılar ki, ağır cəzalar cinayətlərin qarşısını alır və quldarlıq da ən ağır cəza növüdür (1516, ss. 133, 131). Əsərdəki obrazalrdan biri olan portuqal dənizçi Rafael Hislodey izah edir ki, utopiyalılar quldarlığı ölüm cəzasından üstün tuturlar, çünki “kiminsə öldürülməsindənsə, xidmətçi olması ölkənin maraqlarına uyğundur. Onların əməkləri ölümlərindən daha faydalıdır” (More 1516, 131).

Eyni zamanda üsyankar qullar öldürülür, çünki üsyan onlara nəzarətin qeyri-mümkün olduğunu göstərir (More 1516, 131). Hətta Utopiyanın vətəndaşları dövlətin icazəsi olmadan şəhərlərini tərk edə bilməzlər. Bu onu göstərir ki, dövlət təkcə vətəndaşlarının şəxsi həyatını idarə etməklə kifayətlənmək istəməyib, utopiyalıların beyinlərini də nəzarətdə saxlayıb tənzimləmək istəyir. Buna görə də, Morun ən məşhur bioqraflarından olan R. Çembers haqlı olaraq soruşur ki, “istənilən bir dövrdə terrorizmi bu qədər irəli aparan bir dövlət mövcud olubmu?” (Chambers 1958 in Beauchamp 2007, 288).

Utopiyanın təsisatları adi vətəndaşlar tərəfindən yox, xeyirxah Kral Utopus tərəfindən qurulub və bu təsisatlar qeyri-mükəmməl utopiyalıları nəzarətdə saxlayır. Məsələn, Morun Utopiyasında hüquqşünaslar yoxdur, çünki onlar istənilən cəmiyyətdə çoxlu qanun pozuntuları tapıb çıxardırlar və hüquqşünaslar deyənə qədər adi vətəndaşların əksəriyyəti öz hüquqlarının qonşuları tərəfindən pozulduğundan heç xəbərdar da olmurlar (More 1516, 134). Morun ideyası budur ki, insanlar çoxlu qaydaların mövcud olduğu mürəkkəb cəmiyyətdə ahəngdar yaşaya bilmirlər və həyat onlar üçün sadələşdirilməlidir. Ona görə də, belə sadə bir cəmiyyətdə hüquqşünaslara yer yoxdur. Həmçinin seçim imkanlarını da azaltdığı üçün ciddi qanunlar cinayət törətməyi demək olar ki, qeyri-mümkünə çevirirlər.

Utopiyalılar hamının bir-birini tanıdığı kiçik icmalarda yaşayır, hər bir addımlarında dövətin onları izlədiyini hiss edirlər və maddi baxımdan da yaxşı vəziyyətdədirlər. Bu növ bir dünyada insanın qanunları pozmaq üçün çox məhdud seçim azadlığı olur.

Kitabın birinci hissəsində Hislodey iddia edir ki, insanlar ətraf-mühitin məhsuludurlar; onların xarakterləri sosial münasibətlər və təhsillə formalaşıb, həmçinin sosial ədalətsizlik insanları cinayət törətməyə vadar edir. Buna görə də, cəzanın cinayətlərin qarşısını alacağını düşünmək mənasızdır. Cəmiyyət elə bir vəziyyət yaradır ki, çox insanın cinayətdən başqa seçimi qalmır və Hislodey Mordan soruşur ki, əgər belə bir ədalətsiz cəmiyyətdə dövlət vətəndaşları cəzalandırırsa, bu “birinci oğruları yaradıb, sonra da onları cəzalandırmaq” deyilmi? (More 1516, 28). Hislodey qeyd edir ki, əgər dövlət məmurları cinayət törətsələr, nə kimsə onların avtoritetini sorğulaya, nə də onları cəzalandıra bilər, çünki “məmurların cəzası Tanrının hökmünə qalıb” (More 1516, 167). Əlavə olaraq, vətəndaşlar senat və xalq yığıncağından kənarda ictimai məsələləri müzakirə etsələr, ölüm hökmü ilə cəzalandırılırlar (1516, 72). Bu cəzalar da onu göstərir ki, dövlət utopiyalıların özlərini idarə edə biləcəyinə inanmır, vətəndaşlardan isə qaydalara əməl etmək və idarəedicilərin şərəf və avtoritetini sorğulamamaq gözlənilir. Bu səbəbdən də, Mor “Utopiya”da hər kəsin maddi ehtiyaclarının qarşılandığı və qaydaların ciddi olduğu bir cəmiyyət qurur. Qısası, Mor təklif edir ki, insan təbiətini dəyişdirmədən yeni təsisatlar quraraq daha yaxşı dünya yaratmaq mümkündür.

Kampanellanın *Günəşin Şəhəri* əsərində ədalətin əsas elementi qisasdır: qana qan, cana can. Günəş cəmiyyətində on ikidən çox deputat var, beşincinin adı isə Cinayət və Ədalətdir. Yazılmış qanunlar olmadığı üçün əksər hallarda ittiham edilmiş şəxs sosial qınaq ilə cəzalandırılır: tutaq ki, icma masasındadan və qarşı tərəflə cinsi münasibətdən məhrum edilir (Campanella 2013, ss. 6, 22). Kampanella öz utopist cəmiyyətində elm və ağıla xüsusi əhəmiyyət verir. Belə ki, hətta ölüm hökmlərində

də cəzalandırılan şəxs ağıl ilə razı salınmalıdır. Əlavə olaraq, cinayətkarın məhkəmədə özünü müdafiə etmək üçün rasional arqumentlərdən istifadə etmək hüququ var və əgər məhkəməni günahkar olmadığına inandıra bilsə, yalnız Hoh (dövlət başçısı) onu əfv etmək səhaliyyətinə sahibdir (2013, 22). Ədalət qisas üzərinə qurulduğu üçün, başqasını qətlə yetirən cinayətkarlar da dövlət və ya cəlladlar tərəfindən edam edilməkdənsə, insanlar tərəfindən daşqalaq edilərək öldürülür. Məhkum edilmiş şəxsə qarşı göstərilən yeganə mərhəmət isə onun kütlə tərəfindən öldürülməsi əvəzinə, intihar etməsinə imkan yaradılmasıdır (2013, 23).

Maraqlıdır ki, Morun xəyali dövləti kimi, Kampanellanın da dövlətinin vətəndaşların azadlıqlarını məhdudaşdırıb, cinayət törətməyi demək olar qeyri-mümkün edən avtoritar dövlətə xas bir sıra xüsusisiyyətləri var. Kampanella insest və zina kimi irrasional cinayətlərin "mövcud olmadığı" cəmiyyət təsvir edir (Campanella 2013, 6). Günəşlilərin utopiyalılardan daha rasional təsvir edilməsinə baxmayaraq, yenə də *Günəşin Şəhəri* əsərindəki dövlət öz vətəndaşlarını izləməyi lazım bilir. Misal üçün, "[günəşlilər] həmişə kütlə içində yeriyib işlədiyi üçün" məhkəmə bir insanı cəzalandırmaq məqsədilə beş şahid tələb edir (2013, 23). Günəş cəmiyyətinin bu xüsusiyyəti hər kəsin bir-birini tanıdığı və fərdlərin daim başqa insanların nəzarətində olduğu Utopiya cəmiyyətindən heç də fərqlənmir. Başqa sözlə desək, cəmiyyətin strukturu fərdin bir boşluq taparaq cinayət törətməsini olduqca qəlizləşdirir.

Eyni zamanda, Günəş cəmiyyətində çox güclü patriarxal quruluş mövcuddur. Burada qadınlar kişilərin zövqünə uyğun formada geyinib rəftar etməlidirlər. Təbii olmaq çox əhəmiyyətlidir və cəmiyyətdə qadınlar üçün qəbul edilmiş bir gözəllik modeli forması mövcuddur: güclü qol və ayaqlar, "hündür və çevik bədən." Kosmetik vasitələrdən istifadə edən və "dikdaban ayaqqabı geyinənlərə ölüm hökmü verilir" (Campanella 2013, 12). Nəhayət, hətta Kampanellanın xəyali dövlətinin adi cinayətkarlar üçün həbsxanaları olmasa da, "üsyanakar düşmənlərin səsini kəsmək üçün" bir həbsxana var (2013, 22).

Öz səhvlərinə görə düşmən torpağını işğal edə bilməyən əsgərlər qınağa məruz qalırlar; əsgər yoldaşına kömək etməkdən imtina edən əsgərlər döyülürlər; əmrlərə tabe olmayanlar isə şir və ayılarla birgə qəfəsə salınırlar (2013, 17).

*Platformada Azadlıq Qanunu* (1652) kitabında Gerrard Uinstenli şəxsi mülkiyyətlə pulun ləğv edildiyi və hər kəsin ilkin ehtiyaclarının qarşılandığı bir cəmiyyət təsvir edir. Hər kəs ortaq mülkiyyət olan binalarda yaşayır və bir kişininn mülkü ancaq onun ortaq binalardakı mənzili, uşaqları, arvadı və mebelidir. Mülkiyyət və pul ləğv edildiyinə görə, hər kəs işləmək və pul qazanmaqla mükəlləfdir; tənbəllər və oğrular ölümlə cəzalandırılır. Əvvəlki utopiyaların müəllifləri kimi, Uinstenli də rasionallıq və ağıla böyük əhəmiyyət verir. Məsələn, yazır ki, kişi qadından sui-istifadə etsə, özünün “cahilliyi və qeyri-rasional hərəkətlərinə” görə cəzalandırılacaq (Winstanley 1965 [1652], 527). Eyni zamanda, Mor və Kampanellanın utopiyaları ilə müqayisədə, Uinstenli parlamentin deputatlarının insanlar tərəfindən seçildiyi daha demokratik bir cəmiyyət təsvir edir. Bu cəmiyyətdə qanunsuz əməl törətdiyi zaman deputatlar da bütün digər vətəndaşlar kimi qanun qarşısında cavab verir və cəzalandırılırlar. Əlavə olaraq, Kralın keçmiş zülmkar qanunları dəyişdirilməlidir və yeni qanunverici orqan, yəni Parlament insanların razılığını qazanmaldır, “çünki insanların hamısı qanun qarşısında, *cəzanın əzabı altında* bərabər olmalıdırlar; buna görə də qanunlar qəbul edilməzdən əvvəl onlar bu haqda bilməlidir ki, qanunda hansısa bir zülmkar xüsusiyyət olub-olmamasından xəbərdar olsun; elə bir hal varsa, onu aşkar edib dəyişdirə bilsin” (Winstanley 1965 [1652], 559 vurğu əlavə edilmişdir).

Anonim ingilis yazıçısı tərəfindən yazılmış *Libellius: və ya Qotham Krallığının qısa eskizi* əsərində *Günəşin Şəhəri* utopiyasında olduğu kimi hüquq sistemi *lex talionis*, yəni qisas prinsipi üzərinə qurulduğu üçün cinayətkarlar “eyni qaydada məhv edilir” (anon. 1798, 50). Məsələn, qatil qurbanı bıçaqlasa, onu da bıçaqlayıb yaralayacaqlar çünki belə hesab edilir ki, o da ölənə kimi qurbanın çəkdiyi əzab və ağrını

hiss etməlidir. Oxşar olaraq, kimsə başqasını zəhərləyib öldürsə, həmin adam ictimai yerdə zəhər içməli və kütlə onu izləyərkən əzab içində ölməlidir. Bu cəmiyyət üçün qisas və qatilin əzab çəkməsi o qədər vacibdir ki, heç kəs "[cinayətkarın] dilini yaşlamaq üçün bir damcı su da tökməz" (anon. 1798, 50).

**Utopiyalarda yüngül cəza metodları**

*Meda* əsərində Folinqsbay elə bir cəmiyyət təsvir edir ki, orada cinayətkarlar icmanın yaşlılarının nəsihətləri ilə cəzalandırılırlar və cinayətlərin ağırlıq dərəcələrindən asılı olmayaraq, heç kəs ölüm ilə cəzalandırılmır (Folingby 1892, 248). Yaşlılar bu vəzifəyə sərvətləri və ya sosial nüfuzlarına görə seçilmirlər, onlar münsiflər heyyəti tərəfindən ağılları, dürüstlükləri və yetkinliklərinə görə yüksəldirillər. Bu cəzanın konkret prosedurları Folinqsbay tərəfindən qeyd edilməsə də, bələdçi səyahətçiyə deyir ki, bu cəmiyyətdə "əxlaqsızlıq nədir bilinmir" və "ağıl insanların ehtirasları üzərində hökmranlıq qazanıb" (1892, 143) deyə cinayətlər çox nadirdir, özünü idarə etmək isə olduqca əhəmiyyətli hesab edilir. Birinci belə görünə bilər ki, Folinqsbay nəsihəti cəza növü və cinayətlərdən yayındıran bir hərəkət kimi dəyərləndirir. Lakin səyahətçinin ağlın əhəmiyyətini vurğulamasından da görünür ki, yaşlıların nəsihəti ona görə çox təsirli olur ki, bu cəza cinayətkarları öz daxili zəifliklərini və özlərini idarə edə bilməkdə necə bacarıqsız olduqlarını görməyə məcbur etdiyi üçün əhəmiyyətlidir.

Digər bir maraqlı cəza növü də işləməkdən imtina edənlərin ictimai qınaq ilə cəzalandırıldığı F. Hayesin *Falanksın hekayəsi* (1893) əsərində təsvir edilir. Xəbərdarlıq edilmiş şəxs haqqında məlumat bütün cəmiyyətə yerli qəzetlər tərəfindən yayılır və bu da cinayətkara utanc gətirir. *Meda* əsərində cinayətkarın qorxusu öz daxili zəifliyi ilə üzləşmək idisə, Hayesin dünyasında fərd təcrid edilməkdən və cəmiyyətin qınağından qorxur. Buna görə də, iddia edə bilərik ki, xəbərdarlıq ilə Folinqsbay öz utopiyalılarını *sağaltmağa*

çalışır, amma Hayes öz utopiyalılarını *cəzalandırdığı* üçün cinayətkarların əzab çəkməli olduğuna inanır.

Maraqlıdır ki, *Heç Yerdən Məktublar* əsərindən Morris dövlətin şəxsi mülkiyyəti ləğv edərək affekt və ailə cinayətləri də daxil olmaqla demək olar bütün cinayətləri ləğv etdiyi sosialist utopiya yaradır. O düşünür ki, affekt cinayətləri kişinin qadına mülk kimi yanaşmasından, ailə cinayətləri isə üzvlərinin birlikdə sevgi ilə yox, qorxu ilə məcbur saxlanıldıqları tiranlıqdan qaynaqlanır (Morris 2007, 51-52). Həmçinin qeyd edir ki, əqli cəhətdən xəstə olan cinayətkarlar müalicə edildiyi halda digərləri öz qonşuları tərəfindən alçaldılır. Heç kəs həbsxana işçisi, ya da işgəncəçi olmaq istəmədiyi üçün, bu cəmiyyətdə cəza metodu kimi həbs və işgəncədən istifadə edilmir. Bu onu göstərir ki, Folinqsbay kimi Morris də utopiyalılarını cəzalandırmaqdansa, onları müalicə və islah etmək istəyir.

*Modern Utopiya* kitabında Uells elan edir ki, "cinayət və pis yaşayış dövlətin müvəffəqiyyətsizliyinin ölçüsüdür, nəhayətində bütün cinayətlər icmanın cinayətləridir" (Wells 2004, 90). Uells ilk dəfə cinayət törədənlər və 25 yaşdan balaca olan bütün cinayətkarları "xəbərdarlıq və bərpa müalicəsi" kimi ucqar ərazilərdə yerləşən intizam məktəblərinə göndərir (2004, 90). Lakin bəzi insanların islah edilməsi mümkün olmadığından, bu xəyali dövlət ömürlük həbs almış cinayətkarlar üçün hər bir növ cinayətkarın ayrı saxlanılacağı *ada həbsxanaları* yaradır. Məsələn, sərxoş olmaqda ittiham edilən insanlar bir adaya göndərilirlər və onların həmin adada öz muxtariyyətləri olur (2004, 91). Dövlət patrulları həmin məhbusların qaçmalarına maneə olmaq üçün həmin adaları dənizdən nəzarətdə saxlayırlar. Lakin onlar ada həbsxanalarına müdaxilə etmirlər və məhbuslar cəmiyyətlərini özləri təşkil etməlidirlər. Bu utopiyada həbsxana yoxdur, çünki "heç bir insan həbsxanaları lazimi səviyyədə təmin edəcək qədər ağıllı, yaxşı və ucuz deyil" (2004, 90). Müəllif tərəfindən təsvir edildiyi kimi intizam məktəbləri müvəqqətidir və oradakı qaydalar ada həbsxanalarına nisbətdə olduqca ciddidir. Bu

təcrid edilmiş məktəblərdə, qanunu pozan şəxslər azadlıqlarını, ya da daxillərindəki “şeytani trendi” seçməyə məcbur edildikləri halda adalardakı cinayətkarlar istədikləri hər şeyi etməkdə sərbəstdirlər (2004, 90). Bu yanaşmanın məntiqi budur ki, intizam məktəblərində olanların dəyişmək ehtimalı var, amma ada həbsxanalarındakılar islahedilməzdirlər. Bu utopiyalılar cinayəti dövlət və icmanın müvəffəqiyyətsizliyi hesab etdiyindən, cinayətkarları öldürməkdənsə, onları təcrid etməyi üstün tuturlar. Ən maraqlı nüans odur ki, Uellsin xəyali dövləti bütün əlil və xəstə uşaqları öldürür, çünki “təbiətdə ədalət yoxdur … [halbuki] ədalət anlayışı istənilən yaxşı cəmiyyətdə müqəddəs olmalıdır” (2004, 90). Uells xəstə uşaqları öldürərək və cinayətkarları cəmiyyətdən uzaqlaşdıraraq ədalətsiz dünyada ədalətli cəmiyyət qurmaq istəyir. İddia edə bilərik ki, Uellsin xəyali dövləti ədalətli cəmiyyətin fasadından başqa bir şey qurmur.

Stəenlinin *Tülkünün. Halı* (*The Case of The. Fox*) kitabında “təhsilin yayılması ilə təbii olaraq cinayətlərin azaldığı” cəmiyyət təsvir edilir. Lakin bütün reformalara baxmayaraq, hələ də cinayətkarlar mövcuddur (Stanley 1903, 122). Nadir hallarda baş verən qətlin cəzası bütün qatillərin insani olaraq rəftar edildiyi açıq hava həbsxanalarında təcrid edilməkdir. Əlavə olaraq, o qeyd edir ki, cinayət hesab edilən sərxoşluq “demək olar ki, aradan qalxıb” (1903, 123). Eyni ilə Ousleyin *Palingenesia* (1884) kitabında da cinayətkarlarla əqli qüsurlu insanlar kimi rəftar edilir və həbsxana əvəzinə onlar qurbanlarına kompensasiya verə bilmək üçün işləməli olduqları islah düşərgələrinə göndərilirlər.

Samuel Batlerin *Erewhon Revisited* adlı əsərində cəldlik, dürüstlük və səmimilik mənfi xüsusiyyətlər hesab edilir və bu xüsusiyyətləri olan uşaqlar isə Oğlanlar üçün Regional Əks-Tərbiyə Mərkəzlərinə göndərilirlər (Butler 1901, 55-56). Bu yerin məqsədi “dünyadan baş açmaq üçün həddindən artıq yaxşı olan” oğlanları möhkəmləndirməkdir və burada oğlanlara deyilir ki, “yaxşıya müqavimət göstərsən, o, səndən uçub gedəcək” (1901, 56). Bir çox hallarda atalar oğlan uşaqlarına yalan

deməyi öyrətmədiyi üçün cəzalandırıla bilərlər (1901, 44). Bu mərkəzlərdəki müəllimlərdən biri səyahətçiyə izah edir ki, onların məqsədi qeyri-mükəmməlliyə nail olmaqdır çünki “həmişə düz olmaq” çox böyük səhvdir və mükəməllik mümkün olmadığından insanlar qeyri-mükəmməlliyə çatmaqla “ağlabatan vaxt ərzində” daha yaxşı bir cəmiyyət qura bilərlər (1901, 57). Uells kimi Batler də daha yaxşı cəmiyyət qurmaq istəsə də, ondan fərqli olaraq bütün *uyğunsuz* fərdləri öldürmək, ya da uzaqlaşdırmaqdansa, fərqli növ avtoritar / zorakı / paternalist gücdən istifadə edir.

Ümid edirəm artıq aydındır ki, “mükəmməllik heç vaxt bədii utopiyaların xüsusiyyəti olmayıb” (Sargent 1994, 6). Mordan bəri utopiyalar dəyişikliyə və inkişafa açıqdırlar, çünki onlar alternativ və daha yaxşı yerlərin mükəmməl modeli, ya da tamamlanmış layihəsi deyillər. Oxucuların bədii utopiyalardakı dəhşətli cəza metodları qarşısında çaşbaş qaldıqlarını güman edirəm. Çünki bu “dünyalar” heç də bizim indi yaşadığımızdan yaxşı deyillər. Utopiyaların necə olması barədə düşüncəmizdə baş verən müsbət dəyişikliklər onu göstərir ki, daha yaxşı yerlərlə bağlı xəyallarımız inkişaf üçün zəruridir. Başqa sözlə, Oskar Uayldın dediyi kimi, “inkişaf utopiyaların həyata keçirilməsidir” (götürülüb Sargent 1994, 1). Utopiyalar üfüq kimidirlər; heç vaxt çata bilməsək də, onlar daha yaxşı alternativ yerlərin daima mövcud olduğunu bizə xatırladırlar.

## Nəticə

Öz ənənələrimizi ucaldan sosial dəyərlərlə böyüdüyümüz, tərbiyə edildiyimiz üçün, bir çox hallarda öz cəmiyyətimizdə, düşüncə tərzimizdəki ziddiyyətləri və çatışmaz cəhətləri görmək bizə çətin gələ bilər. Bəzi inanclarımızın, sevdiyimiz dəyərlərin sadəcə olaraq səhv olduğunu və heç bir rasional əsasının olmadığını qəbul etmək fərd üçün çox ağır, dağıcıdı bir hadisəyə çevrilə bilər. Lakin düşüncələrimiz və yaşadığımız cəmiyyətdəki çatışmazlıqları görmək üçün utopiyalara ehtiyac duyuruq. Yəni “sizin bir sıra xüsusi utopiyalardan xoşunuz gəlməyə bilər, amma yenə də [alternativ

amma daxiledici utopiyalar yaradaraq və ya təklif edərək hazırkı ilə müqayisədə] olduqca daha yaxşı cəmiyyətin mümkünlüyünə olan inancımızı saxlamaq çox əhəmiyyətlidir” (Sargent 2010, 115). Bədii utopiyalarda istifadə edilən dəhşətli cəza metodları indiki cəmiyyətimizdə qəbul edilməzdir və müzakirə edilən bədii əsərlər bizə utopiyadan çox distopiya təəssüratı bağışlayırlar. Onlar öz dövrlərinə görə daha yaxşı cəmiyyətlər ola bilərlər, amma bizim əxlaq və ədalət anlayışlarımız dəyişib. Biz artıq zinakarların dövlət tərəfindən ölümlə cəzalandırılmalı olduğunu, ya da parlamentdən kənarda ictimai məsələlərin müzakirəsinin qadağan ediməli olduğunu iddia etmirik. Qısası, bizim utopiya anlayışımız dəyişikliyə açıqdır.

Biri “fərdlər başqa insanlar, yaxud qurumlar tərəfindən cins/gender, din, etnik mənsubiyyət, irq, sosial status və xarici görünüş zəminində ayrı-seçkiliyə məruz qalmamalıdır” dedikdə, onu sadəlövhlükdə, axmaqlıqda, “utopist olmaqda” günahlandırmaqdansa, deyilənlərin arzuolunan məqsədlər olub-olmaması barədə düşünmək lazımdır. Əgər onlar arzuolunandırsa, o zaman həmin məqsədlərə necə çatmaq olar sualı ilə məşğul olunmalıdır. Bəlkə də bəzi (bir qrup) fərdlərə qarşı bəslədiyiniz qərəzli fikirləri özünüzdə aradan qaldıra bilmədiyiniz üçün heç kimin bu növ ideyalara inanacağını və izləyəcəyini gözləmirsiniz deyə onlara məhəl qoymursunuz. Utopiyalar olmadan biz daha yaxşı dünyanı, nail olmaq istədiyimiz modeli təsəvvür edə bilmərik. Utopiyalar bizim xəyallarımızdır və onlarsız biz dəyişikliyin mümkün olmadığı maraqsız varlıqlarıq.

**Ədəbiyyat siyahısı:**

Anonymous. *Libellus: Or a Brief Sketch of the Kingdom of Gotham. Comprising Observations Respecting Its Kings, Princes, Nobles, Bishops and Inferior Senators, Etc*. London, 1798.

Beauchamp, Gorman. “Imperfect Men in Perfect Societies: Human Nature in Utopia.” *Philosophy and Literature*, no. 2 (2007):

280–93.

Bellamy, Edward. *Looking Backward*. Canada: The Project Gutenberg, 2008.

Butler, Samuel. *Erewhon Revisited*, 1901.

Campanella, Tommaso. *The City of the Sun*. Global Grey, 2013.
Chambers, R. W. *Thomas More*. Ann Arbor: University of Michigan Press, 1958.

Cziganyik, Zsolt. “Introduction – Utopianism: Literary and Political.” In *Utopian Horizons: Ideology, Politics, Literature*, edited by Zsolt Cziganyik, 1–16. Budapest ; New York: Central European University Press, 2017.

Dahrendorf, Ralf. “Out of Utopia: Toward a Reorientation of Sociological Analysis.” In *Utopia*, 103–126. Routledge, 2017.

Folingsby, Kenneth. *Meda: A Tale of the Future*. s.n, 1892.

Gasset, y Jose Ortega. “History as a System.” In *Philosophy and History*, by Raymond Klibansky and H.J. Paton. London: Oxford University Press, 1936.

Godwin, William. *An Enquiry Concerning Political Justice and Its Influence on General Virtue and Happiness*. Vol. 1. 2 vols. London: London: G.G.J. and J. Robinson, 1793.

Hayes, Frederick William. *The Great Revolution of 1905; Or, The Story of the Phalanx, Etc.* London: Robert Forder, 1893.

Locke, John. *An Essay Concerning Human Understanding*, 2007.

Mannheim, Karl. *Ideology and Utopia*. 2nd ed. Collected Works of Karl Mannheim 1. Routledge, 1998.

More, Thomas. *Utopia*. Planet PDF, 1516.

Morris, William. *News from Nowhere*. The Project Gutenberg, 2007.

Ouseley, Gideon Jasper Richard. *Palingenesia, Or, The Earth's New Birth*. Hay Nisbet & Company, 1884.

Parrington, Vernon Louis. *American Dreams: A Study of American Utopias.* Second. New York: Russell & Russell, 1964.

Ricoeur, Paul. *Lectures on Ideology and Utopia*. Columbia University Press, 1986.

Rousseau, Jean Jacques. *On the Inequality among Mankind*, 2002.
Sargent, Lyman Tower. "A Note on the Other Side of Human Nature in the Utopian Novel." *Political Theory* 3, no. 1 (1975): 88–97.

Russell, Addison Peale. *Sub-Coelum: A Sky Build Human World*. Forgotten Books, 2013.

Sargent, Lyman Tower. "A Note on the Other Side of Human Nature in the Utopian Novel." *Political Theory* 3, no. 1 (1975): 88–97.

———. "The Three Faces of Utopianism Revisited." *Utopian Studies* 5, no. 1 (1994): 1–37.

———. "Ideology and Utopia: Karl Mannheim and Paul Ricoeur." *Journal of Political Ideologies* 13, no. 3 (October 1, 2008): 263–73.

———. *Utopianism: A Very Short Introduction*. 1 edition. Oxford: Oxford University Press, 2010.

Stanley, William. *The Case of The. Fox: Being His Prophecies, under Hypnotism, of the Period Ending A.D. 1950: A Political Utopia*. London: Truslove & Hanson, 1903.

Stephenson, Wendell. "Fingarette and Johnson on Retributive Punishment." *The Journal of Value Inquiry* 24, no. 3 (July 1990): 227–33. doi:10.1007/BF00149435.

Vieira, Fatima. "The Concept of Utopia." In *The Cambridge Companion to Utopian Literature*, edited by Gregory Claeys, 1

edition., 3–27. Cambridge ; New York: Cambridge University Press, 2010.

Wallace, Edgar. *The Four Just Men*. Forgotten Books, 2013. http://www.forgottenbooks.com/books/The_Four_Just_Men_1000147764.

Wells, H.G. *Men Like Gods*. Blacksmith Online, 2002. http://public-library.uk/ebooks/62/48.pdf.

———. *A Modern Utopia*. A Penn State Electronic Classics Series Publication, 2004.

Winstanley, Gerrard. *The Works of Gerrard Winstanley with an Appendix of Documents Relating to the Digger Movement*. Edited by George H. Sabine. New York: Russell and Russell INC, 1965. https://www.marxists.org/reference/archive/winstanley/1652/law-freedom/law-freedom.pdf.

[i] Müqəvva səfsətəsi – ən çox istifadə edilən səfsətələrdən biridir. Burada A B-nin X iddiasını təkzib etmək üçün B-nin iddiasını "gizlin" şəkildə dəyişdirib Y edir. Sonra isə Y iddiasını təkzib edərək B-nin X iddiasını təkzib etdiyini düşünür. Başqa sözlə desək, A "B əslində X-ı yox, Y-ı iddia edirdi" və ya "X və Y elə ikisi də eyni şeylərdir" deyə düşünür, ya da başqalarını belə düşündüyünə inandırmaq istəyir. Bu səbəbdən də A-nın "hücumu" əsl iddiaya qarşı yox, xəyali bir müqəvvaya qarşı hücum olaraq qiymətləndirilir.

[ii] "Keçmişin və ya potensial sosial nizamın təhrif edilmiş görüntüsü olduğu sonradan ortaya çıxan ideyalar ideoloji olduğu halda növbəti sosial nizamda həyata keçirilənlər nisbi utopiyalardır" (Mannheim 1998, 1848).

[iii] XVI-XVIII əsrlərin tanınmış dörd bədii utopiya əsəri üçün baxın, see Thomas More – *Utopia* (1516), Tommaso Campanella – *The City of the Sun* (1623), Gerrard Winstanley – *The Law of Freedom in a Platform* (1652), və anonim bir ingilis müəllif tərəfindən yazılmış *Libellus: Or a Brief Sketch of the*

*Kingdom of Gotham* (1798).

XIX əsrin sonu, XX əsrin əvvəllərinin bədii utopiyaları üçün baxın, Gideon Jasper Richard – *Palingenesia* (1884), Edward Bellamy – *Looking Backward* (1887), William Morris – *News from Nowhere* (1890), Kenneth Folingsby – *Meda* (1892), Addison Peale Russell – *Sub-Coelum* (1893), F.W. Hayes – *The Story of the Phalanx* (1893), Samuel Butler – *Erewhon Revisited* (1901), William Stanley – *The Case of The. Fox* (1903), H.G. Wells – *A Modern Utopia* (1905), və Edgar Wallace – *The Just Four Men* (1908).